AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *26.02.2015* |
| Qeydiyyat nömrəsi | *11/4* |
| Adı | *"Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi yaradılması Qaydaları"nda dəyişiklik edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *07.03.2015* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201502260114* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *06.03.2015* |

Bank sisteminin maliyyə sabitliyinin dəstəklənməsi məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 48.1.3-cü maddələrinə, habelə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 34.2.12-ci maddəsinə əsasən

**Q Ə R A R A   A L I R:**

1. "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil

edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr** **Elman Rüstəmov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 11/4
“26” fevral 2015-ci il

**“Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları”nda dəyişiklik**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 dekabr 2013-cü il tarixli 25/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları”nda aşağıdakı dəyişiklik edilsin:

6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“6.1. 2015-ci il fevralın 23-dək restrukturizasiya olunmuş aktivlər standart aktivlər kimi, 2015-ci il fevralın 23-dən restrukturizasiya olunmuş aktivlər isə qənaətbəxş aktivlər kimi təsnifləşdirilə bilməz.”.